iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 05 (900)
5 - 11 fevral
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır


## Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyada səfərdədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda keçirilən “Suriyaya və regiona dəstək” konfransında iştirak etmək üçün fevralın 3-dən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfərdədir.

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalanıb

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb.**

Fərmanda deyilir:

"Son vaxtlar dünyada baş verən iqtisadi-siyasi proseslər ölkədə qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin fəaliyyətinin çevikliyinin və şəffaflığının təmin olunmasını, həmçinin bu sahələrdə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsini, eləcə də ictimai nəzarət sisteminin yaradılmasını zəruri edir.

Ölkənin maliyyə sisteminin daha da sabit və dayanıqlı, rəqabətqabiliyyətliliyinin isə daha yüksək olması üçün maliyyə bazarlarının fəaliyyətinin səmərəli şəkildə təmin olunması, eləcə də kreditorların, investorların və sığorta olunanların hüquqlarının qorunması tələb olunur”.

Fərmanla Azərbaycan Respublikasının maliyyə sektorunun dayanıqlılığını təmin etmək və bu sahədə nəzarət mexanizmlərini təkmilləşdirilmək məqsədi ilə qərara alınmışdır ki, Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs yaradılsın.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin təsisçisinin aşağıdakı səlahiyyətləri: nizamnamənin və strukturunun təsdiqi; nizamnamə fondunun miqdarının müəyyən edilməsi və icra orqanlarının (kollegial və ya təkbaşçı) yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Bu fərmanla Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında 5 nəfər üzvdən ibarət Direktorlar Şurasının yaradılması müəyyən edilmişdir. Həmçinin, fərmanla Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti ləğv edilsin və onların istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına verilməsi də müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə əlaqədar İşçi qrupunun yaradılması qərara alınmışdır.

## Xalqlarımız arasında dostluq əlaqələri ikitərəfli münasibətlərin inkişafına töhfəsini verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olmuşdur.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Görüşdə regional təhlükəsizlik məsələləri müzakirə edilmiş, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Abu Dabidə Şeyx Zayed məscidi kompleksini ziyarət etmişdir.

Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Abu Dabidən Dubaya gəlmiş, burada məşhur “Bürc-Xəlifə” binası ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, dünyanın ən böyük göydələni olan “Bürc-Xəlifə”nin tikintisi 2004-2009-cu illərdə həyata keçirilib. 2010-cu ildə binanın möhtəşəm açılışı olub. Əvvəllər “Bürc-Dubay” adlandırılan 165 mərtəbəli bu möhtəşəm tikilinin hündürlüyü 828 metrdir. Binanın 150-ci mərtəbəsindən sonrakı hissələrinin tikintisində polad konstruksiyalardan istifadə olunub. Bununla da “Bürc-Xəlifə” dünyada ilk dəfə beton kütlə üzərində polad konstruksiyalardan istifadə olunan tikili kimi tarixə düşüb. “Bürc-Xəlifə” öz möhtəşəmliyi ilə Dubayın yeni işgüzar hissəsinin rəmzi sayılır.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Raşid Əl Məktumla geniş tərkibdə görüşü olub.

Görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunmuşdur. Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Raşid Əl Məktumun Azərbaycana səfərinin uğurla keçdiyi bir daha vurğulanmışdır.

Dünyada yaşanan iqtisadi böhrana və neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə toxunan Şeyx Məhəmməd bin Raşid Əl Məktum bununla bağlı ölkəsində həyata keçirilən məsələlərdən danışmış, Prezident ilham Əliyev dünyada baş verən bu proseslərlə əlaqədar Azərbaycanda da genişmiqyaslı tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmışdır. O, bildirmişdir ki, hazırda ölkəmizdə yeni iqtisadi modelin müəyyənləşdirilməsi üzərində əsaslı iş aparılır və bu model iqtisadiyyatın geniş sahələrini əhatə edəcək. Hökumətlərarası Birgə İqtisadi Komissiyanın fəaliyyətinə toxunan dövlətimizin başçısı bu komissiyanın qarşılıqlı fəaliyyəti əsasında əməkdaşlığımızın daha da genişləndirilməsi, o cümlədən investisiya qoyuluşu sahəsində işlərin həyata keçirilməsindən razılığını ifadə etmişdir. Turizm sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev turizmin inkişafının Azərbaycanın prioritet sahəsi kimi səciyyələndirdi, ölkəmizin regionlarında yüksək standartlara cavab verən aeroportların, turizm infrastrukturunun yaranmasının Azərbaycana turist axınının genişlənməsinə əlverişli şərait yaratdığını bildirmişdir.

Söhbət zamanı istehsal, sənaye, logistika, hava nəqliyyatı sahələrində əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri fevralın 2-də başa çatıb.


**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




Üstünlükləri:

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikasi və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

“BiolojiTəbabət”klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
(“Memar Əcəmi” metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az



# Şəmkir rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tövsiyələrə uyğun olaraq, vergilər naziri Fazil Məmmədov fevral ayının 1-də Şəmkir şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Heydər Əliyev Mərkəzinin binasında keçirilən görüşdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, sahibkarlar, rayon ziyalıları iştirak ediblər.

Görüşdə çıxış edən vergilər naziri Fazil Məmmədov dünyada baş verən proseslər, enerji və maliyyə bazarlarında yaranmış iqtisadi vəziyyət, bunun ölkəmizə təsirləri barədə danışıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin büdcə gəlirlərinin neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı işlər və atdığı qətiyyətli addımlar nəticəsində bütün dünyanı bürümüş qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirinin minimallaşdırılmasına nail olunduğunu vurğulayıb.

F.Məmmədov iqtisadi inkişaf dinamikasının saxlanması, yerli istehsalın dəstəklənməsi, sahibkarlığa geniş dövlət dəstəyinin göstərilməsi, vətəndaşların sosial rifahının yaxşılaşdırılması, əhalinin yaranmış yeni iqtisadi situasiyadan zərər çəkməməsi üçün Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə görüş iştirakçılarına geniş məlumat verərək, mövcud iqtisadi şəraitdə iş yerlərinin ixtisarına yol verilməməsinin və yeni iş yerlərinin yaradılmasının qarşıda duran ən mühüm vəzifələrdən olduğunu bildirib.

Açıq dialoq şəraitində keçən görüşdə F.Məmmədov ölkə Prezidenti tərəfindən qarşıdakı dövr üçün müəyyənləşdirilmiş strateji istiqamətlər barədə məlumat verib. Bildirilib ki, 2016-cı ildə iqtisadi şaxələndirmə, regional inkişaf, qeyri-neft sektorunun inkişafı prioritet olacaqdır. Azərbaycan hökumətinin məqsədi ölkədə sahibkarlığın inkişafı, qeyri-neft sektorunun ümumi daxili məhsulda və büdcə daxilolmalarında payının artırılmasına, sahibkarlıq fəaliyyətində canlanmaya nail olmaqdır. Bu mənada 2016-cı ildə regionlarda sahibkarlığın inkişafına xüsusi önəm veriləcəkdir.

F.Məmmədov bildirib ki, yerlərdə sahibkarlığın inkişafı üçün dövlət tərəfindən bütün mümkün addımlar atılır. Biznes mühitinin yaxşılaşdırılması, sahibkarların dəstəklənməsi məqsədilə vergi qanunvericiliyinə ciddi dəyişikliklər edilərək onlara bir sıra vergi güzəştləri verilib, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı azaldılıb, sahibkarlıq subyektlərində yoxlamaların əksəriyyəti dayandırılıb, ölkəmizdə investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə ölkə başçısı tərəfindən yeni qanunvericilik sənədləri təsdiq edilib. O qeyd edib ki, sahibkarlar da bu dəstəkdən faydalanaraq, məhsul istehsalının artırılmasına nail olmalıdırlar.

F.Məmmədov yerli sahibkarlara müraciət edərək onları öz fəaliyyətlərini genişləndirməyə, rayonun potensialından maksimum istifadə etməyə, yerli istehsalla bağlı layihələrə sərmayə yatırmağa çağırıb. Qeyd olunub ki, Şəmkir rayonunda kənd təsərrüfatının, turizmin daha da sürətlə inkişaf etməsi üçün böyük potensial vardır. Qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan qeyri-neft sənayesinin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıran nazir Şəmkir rayonu ərazisində də belə bir sənaye zonasının yaradılması imkanlarının nəzərdən keçirilməli olduğunu vurğulayıb.

Son illər rayonda açılmış yeni müəssisələr barədə danışan nazir onlardan Şəmkirçay su anbarının ölkəmizin qeyri-neft sektorunda həyata keçirilən ən böyük investisiya layihələrindən biri olduğunu qeyd edib. Bu layihənin reallaşdırılması nəticəsində Gəncə, Şəmkir və Samux şəhərlərinə içməli suyun verilməsinin təmin edildiyi, Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarında on minlərlə hektardan artıq sahənin su təminatının yaxşılaşdırıldığı bildirilib.

Şəmkirdə yeni innovativ texnologiyalara əsaslanan müasir tipli sahibkarlıq subyektlərinin, o cümlədən gələcəkdə 3 min nəfərədək işçinin çalışacağı nəzərdə tutulan Şəmkir Aqroparkı, artıq istifadəyə verilmiş müasir texnoloji avadanlıqlarla təchiz olunmuş "Zəyəm Texnologiyalar Parkı"nın və çörək zavodu kimi obyektlərin Şəmkir rayonunda kənd təsərrüfatının inkişafında, əhalinin maddi rifahının yaxşılaşmasında, xüsusilə də bölgədə yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynadığını qeyd edən F.Məmmədov ötən il rayonda 3337 iş yerinin, o cümlədən 587 daimi iş yerinin yaradılmasını müsbət dəyərləndirib.

Ölkə başçısının dövlət büdcəsindən dotasiya alan rayonların sayının azaldılması ilə bağlı dediklərinə toxunan nazir Şəmkir rayonunun da bu istiqamətdə ciddi addımlar atmasını vacib hesab edib. O vurğulayıb ki, bu münbit torpağı, suvarma üçün suyu, zəhmətkeş insanları, bacarıqlı sahibkarları olan Şəmkir rayonu üçün kifayət qədər real bir vəzifədir və dövlət büdcəsindən rayona ayrılan vəsaitin məbləğini azaltmaq, gələcəkdə isə tamamilə dotasiyasız işləmək üçün təsirli tədbirlər görülməlidir.

F.Məmmədov yerli icra hakimiyyətini və bələdiyyələri sahibkarlarla partnyorluq münasibətlərini dərinləşdirməyə, sahibkarlara hərtərəfli yardım göstərməyə, sahibkarları isə öz növbəsində yeni iş yerləri yaratmağa, istehsal sahələrini genişləndirməyə, bütün bunlarla yanaşı fəaliyyət göstərdikləri bölgələrdə öz sosial məsuliyyətlərini də hiss etməyə çağırıb.

Görüşdə çıxış edən sahibkarlar və ictimaiyyət nümayəndələri, göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirib, Şəmkir rayonunda yeni istehsal sahələrinin və iş yerlərinin yaradılması, sahibkarlara kredit resurslarının ayrılması, kənd təsərrüfatı məhsullarının satışı və xarici bazarlara çıxarılmasında sahibkarlara köməklik göstərilməsi və s. ilə bağlı təkliflərlə çıxış ediblər.

Dəllər qəsəbəsindən olan sahibkar Etibar Əliyev heyvandarlığın və quşçuluğun daha da intensiv inkişaf etdirilməsi üçün rayonda yem zavodunun tikintisinə ehtiyac olduğunu, bu məqsədlə hazırlanmış layihənin reallaşdırılmasına köməklik göstərilməsini xahiş edib.

Kür qəsəbə sakini Şahin Pənahov qəsəbədə yaşayan qadınları işlə təmin etmək üçün formaların tikilişi və xalça sexinin yaradılmasına köməklik göstərilməsini xahiş edib.

Düyərli kənd sakini Rafiq Cəfərov isə Zəyəm çayının suyun istifadə olunmasında yaranmış problemlərdən danışaraq, əhalinin su təchizatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması üçün yeni boru xətlərinin çəkilməsinin vacibliyini diqqətə çatdıraraq, bununla bağlı dövlət qurumlarından köməklik gözlədiklərini qeyd edib.

Vergilər naziri Fazil Məmmədov bütün müraciət və təkliflərin nəzərə alınacağını bildirib.



KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# ÖZƏL BÖLMƏDƏ TURİZM VƏ MÜALİCƏ-SAĞLAMLIQ MƏRKƏZLƏRİ BÖYÜK İMKANLARA MALİKDİR



**Murovdağın ətəklərində yerləşən Naftalan şəhəri respublikamızın ən isti yaşayış məntəqələrindən biridir. Xüsusilə, yay aylarında burada hərarət çox yüksək olur, qış isə sərt keçir.**

Mütəxəssislərin fikrincə, dünyanın nadir məlhəmlərindən sayılan Naftalan neftinin müalicəvi təsiri isti havalarda daha güclüdür. Odur ki, Naftalana gələnlərin sayı yay-payız mövsümündə daha çoxdur. Vaxtilə şanı-şöhrəti dünyaya yayılan Naftalanın müalicə və kurort müəssisələri 90-cı illərdə dağıdılmışdı, demək olar ki, heç yer işləmirdi. Yalnız ulu öndər Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbərliyə gəldikdən sonra Naftalan dirçəlməyə, yenidən qurulmağa başladı. Ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər gerçəkləşdirilmiş zəruri tədbirlər nəticəsində Naftalan yeni inkişaf və tərəqqi yoluna qədəm qoydu.

Şəhər müasirləşdi, abadlaşdı, illərlə yığılıb qalan problemlərin sistemli şəkildə aradan qaldırılmasına başlandı. Şəhərin sosial və mədəni strukturu yeniləndi, yollar, küçələr abadlaşdırıldı, yaşıllıq zolaqları, çəmənliklər salındı, ictimai binalar əsaslı şəkildə təmir olundu, yeni binalar tikilib istifadəyə verildi. Şəhərin içməli suya, təbii qaza, elektrik enerjisinə olan tələbatı tam şəkildə həll edildi. Görülən tədbirlər həm şəhərə gələnlərin sayını artırdı, həm də özəl bölmənin, sahibkarlığın inkişafı üçün yeni imkanlar açmış oldu.

**«Azərbaycan Respublikasında kurortların 2008-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı»na uyğun olaraq, Naftalan kurortlarının yenidən qurulması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib, müasir səviyyəli istirahət və sağlamlıq mərkəzləri istifadəyə verilib, Naftalanda dövlətimizin müstəsna qayğı və diqqəti nəticəsində turizmin inkişafı üçün hər cür şərait yaradılıb. Son illər turizm sahəsində aparılan islahatlar buraya Azərbaycandan kənarda da marağın artmasına səbəb olub. Artıq digər ölkələrin kurort şəhərləri Naftalanla əməkdaşlıq əlaqələri qurmağa can atır.**

Son 5 ildə şəhərə gələn yerli və xarici vətəndaşların sayı 5 dəfə artaraq 13 minə çatıb. Son 1 ildə isə şəhərin istirahət və müalicə müəssisələrinə dünyanın bir çox ölkələrindən – Rusiya, Qazaxıstan, Qırğızıstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Kanada, İsrail, Polşa, Fransa, İspaniya, İtaliya, Yaponiya, Çin, Dominikan, Birləşmiş Ərəb Əmirliyi kimi dövlətlərdən 2500-dək əcnəbi vətəndaş gəlmişdir. Həmçinin, ölkə başçısının tapşırığına uyğun olaraq, Naftalan digər ölkələrin kurort şəhərləri ilə əməkdaşlıq əlaqələrini genişləndirir. Hazırda Naftalan şəhəri Fransanın Leqi, İtaliyanın Pozitano, Rusiyanın Yessentuki və Polşanın Uneyev şəhəri ilə sıx əməkdaşlıq edir.



**Hazırda Naftalan şəhərində 2000 yeri olan 8 istirahət və sağlamlıq mərkəzi fəaliyyət göstərir. Naftalan xərclərini öz gəlirləri hesabına təmin edən şəhərlər sırasına qatılıb. Lakin şəhərin gəlirlərini dəfələrlə artırmaq, yüzlərlə yeni iş yerləri açmaq üçün böyük imkanlar mövcuddur.**

Azərbaycanın əsrarəngiz təbiəti, mülayim iqlimi, bərəkətli torpağı, dağları, çayları, gölləri, meşələri vardır. Gəncədən üzü yuxarı dağlara qalxdıqda Hacıkəndin, Göygölün sərin havası insanı ağuşuna alır, Şahdağın, Qəbələnin, Şəkinin, Oğuzun və Qafqaz sıra dağlarının ətəklərində yurdlaşan digər yaşayış məntəqələrinin, həmçinin Cənub bölgəsinin gözəlliklərinə baxmaqla doymaq olmur. Mavi Xəzərin qumlu sahillərində istirahət etməkdən çətin ki, bir kəs məmnun qalmasın. Məhz Naftalanın da bu xüsusda öz yeri və rolu vardır. Dünyanın elə bir meyvəsi, neməti yoxdur ki, Azərbaycanda yetişməsin. Belə olan halda biz nəyə görə müalicə üçün, istirahət üçün çox hallarda xaricə üz tuturuq? Demirik ki, dünyanı gəzib görməyək. Lakin bu qədər ifrat dərəcədə yox ki! İşimlə əlaqədar tez-tez qonşu Gürcüstanda oluram. Hər səfərim zamanı sərhəd məntəqəsində saatlarla növbədə qalıram. Xüsusilə də yay mövsümündə sərhədi keçmək müşkül məsələdir. Statistikaya görə, təkcə ötən il Azərbaycandan Gürcüstan ərazisinə 1 milyona qədər minik avtomobili keçib. Hələ avtobusla, qatarla, təyyarə ilə gedənləri demirəm. 2015-ci ilin yay mövsümündə Batumi, Kobuleti, Ureki və digər sahilyanı istirahət guşələrində 250 mindən artıq azərbaycanlı istirahət edib.

Sxaltubo, Borjomi, Ucurma deyilən müalicə ocaqlarına gedənlərin ardı-arası isə kəsilmir. Həmin müalicə müəssisələrində Naftalanın istirahət və kurort mərkəzlərində olan şəraitin heç 10 faizi də yoxdur.

Bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki, adları çəkilən istirahət və müalicə ocaqlarının təxminən 90 faizdən çoxu özəl mülkiyyətdədir və bu müəssisələrə Gürcüstan dövləti tərəfindən investisiyalar yatırılmayıb. Qonşu ölkədə kənd turizmi, yaşıl turizm, demək olar ki, respublikanın bütün gəzməli, görməli yerlərini əhatə edib və sahibkarlıq subyektləri tərəfindən idarə olunur.

Azərbaycanda isə dövlət başçısı azad sahibkarlığın inkişafına həmişə müstəsna dəstək göstərib, özəl bölmənin inkişafı ilə bağlı onlarla dövlət proqramları hazırlanıb, prezident sərəncamları imzalanıb. Təkcə 2015-ci ildə Sahibkarlığa Dəstək Milli Fondu və digər mənbələr hesabına bu məqsədlər üçün 248,5 milyon güzəştli kreditlər verilib. Açığını demək lazımdır ki, bu qədər diqqət və qayğıya rəğmən, hələ istədiyimiz səviyyəyə gəlib çatmamışıq.

Bütün bunları nəzərə alaraq ölkə prezidenti cənab İlham Əliyev yanvar ayında Nazirlər Kabinetində keçirilən müşavirədə dövlət orqanları və sahibkarlıq subyektləri qarşısında konkret vəzifələr qoymuşdur.

Yenə Naftalanla bağlı fikirlərə qayıdaraq qeyd etmək istəyirəm ki, tibbi və müalicəvi xüsusiyyətlərinə görə, Naftalan neftinin dünyada analoqu yoxdur. Hələ XVIII əsrdən başlayaraq Avropa ölkələri bu neftə böyük maraq göstərmiş və onun emalını həyata keçirən müəssisə yaratmışdır. Bu yolla Naftalan nefti və ondan alınan qiymətli məlhəmlər Avropa ölkələrində yayılmışdır. Sovetlər İttifaqında Naftalanı tanımayan adam tapmaq çətin idi. İmperiya çökdükdən, Qarabağ savaşı başladıqdan sonra bütün əlaqələr qırıldı və bunun nəticəsi olaraq Naftalana gediş-gəliş tamamilə kəsildi.

Bu gün həmin şan-şöhrət ləng də olsa, geri qayıtmağa başlayır. Bu prosesi daha da dərinləşdirmək üçün çevik və ardıcıl tədbirlərin görülməsinə zərurət duyulur. İstirahət və kurort şəhərlərimizin təbliği, tanınması sahəsində işlər sürətləndirilməlidir. Bir də ki, təkcə Naftalan şəhərində yox, eyni zamanda, respublikamızın digər rayon və şəhərlərində Naftalan nefti ilə müalicəni həyata keçirən mərkəzlərin geniş şəbəkəsi yaradılmalıdır. Bunu yaratmaq o qədər də çətin məsələ deyil. Belə olarsa, həm həmin bölgələrdə yaşayan insanlar, həm də əcnəbi vətəndaşlar bu imkandan geniş şəkildə faydalana bilərlər.

**Örnək kimi Gəncədə 10 ildən artıqdır ki, fəaliyyət göstərən Naftalan Müalicə Sağlamlıq MMC-ni göstərmək olar. Mərkəz Gəncə şəhərinin, eləcə də Qərb bölgəsinin əhalisinə yüksək müalicə xidmətləri göstərir. Qədim Gəncəyə təşrif buyuran xarici vətəndaşları da burada görmək olar. Mərkəzdə müayinə və müalicə üçün hər cür şərait yaradılıb. Naftalan nefti buraya maşınlarla daşınılıb gətirilir, xüsusi çənlərə tökülür, istifadə müddəti başa çatdıqdan sonra yenisi ilə əvəzlənir. Mərkəzdə xəstələr Naftalan vannaları və tərkibində Naftalan nefti olan bron vannalarında 8-12 kurs keçməklə müalicə olunurlar. Müalicə qiymətləri münasibdir və pasiyentləri razı salır. Sözügedən sağlamlıq-müalicə mərkəzində oynaq-sümük, dəri, sinir, sonsuzluq və digər xəstəliklərin müalicəsi aparılır.**

Başqa bir problem Naftalan neftindən dərman preparatlarının hazırlanması ilə bağlıdır. Vaxtilə Bakı şəhərində Naftalan mazı, müxtəlif qarışıqlarla məlhəmlər, kremlər və s. istehsal edirdi və bütün ittifaq respublikalarına göndərilirdi. İndi həmin preparatlar apteklərdə gözə dəymir. Məhz bütün bunları nəzərə alaraq cənab prezident İlham Əliyev ölkəmizdə dərman preparatlarının istehsalı ilə bağlı xüsusi tapşırıqlar verdi. Yaxın vaxtlarda biz bunun real nəticələrini görəcəyik.

Dünyada baş verən iqtisadi və maliyyə böhranlarının, xoşagəlməz tendensiyanın hələ də davam etməsi Azərbaycanda mövcud imkanlardan hərtərəfli istifadə etməklə yerli istehsalın genişləndirilməsi, yeni sahələrin yaradılması zərurətini çox ciddi şəkildə önə çəkmişdir. Burada bir sıra strateji məhsullar, o cümlədən dərman vasitələrinin istehsalı mühüm əhəmiyyət kəsb edir.

**Bu gün qarşıda duran ən vacib vəzifələrdən biri kurort və istirahət mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi, kənd turizminin, ekoturizmin inkişafına əngəl törədən bütün maneələrin aradan qaldırılması, bu sahə ilə məşğul olan sahibkarlıq subyektlərinə avadanlıqların gətirilməsində, infrastruktur obyektlərinin tikintisində vergi və gömrük güzəştlərinin tətbiq olunması və güzəştli kreditlərin verilməsinin təmin edilməsidir. Çünki turizm yüksək gəlir əldə etmək deməkdir, əhalinin məşğulluğunun təmin olunması deməkdir, nəhayət, ölkənin beynəlxalq imicinin artması deməkdir.**

İqtisadi böhranın davam etməsinə rəğmən, 2016-cı ildə də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 250 milyon manat güzəştli kredit verilməsi nəzərdə tutulur. Zəruri hallarda bu vəsaitin həcmi artırılacaq. Ölkə prezidentinin göstərişinə əsasən, həmin vəsaitin böyük qismi regionlara yönəldiləcək, yarımçıq qalan obyektlərin tikintisi başa çatdırılacaq, xırda və orta biznesin inkişafına dəstək artırılacaq, turizmin inkişafı üstün mövqelərə çıxarılacaqdır.

*Zülfü İLYASOV,*
*bölgə müxbiri*

İQTİSADİYYAT
5 - 11 fevral 2016-cı il

# Vergilər Nazirliyində Dünya Bankının nümayəndə heyəti ilə görüş keçirilib



Fevral ayının 1-də Vergilər Nazirliyində Dünya Bankının Cənubi Qafqaz üzrə nümayəndə heyəti ilə görüş keçirilib.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov qonaqları salamlayaraq Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, dünyada baş verən kataklizmlərə baxmayaraq 2015-ci ildə aparılan uğurlu iqtisadi siyasət, ölkəmizdə makroiqtisadi vəziyyətin sabitliyi, Azərbaycan iqtisadiyyatının xarici təsirlərə dayanıqlılığı, vergi sistemində aparılan modernləşmə prosesi, texnoloji imkanların genişləndirilməsi, vergi inzibatçılığı və elektron hökumət quruculuğu istiqamətində əldə edilən nailiyyətlər barədə məlumat verib.

Dünya Bankının Cənubi Qafqaz üzrə proqram rəhbəri cənab Raşmi Şankar yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılması istiqamətində hökumətin atdığı addımları, vergi sisteminin modernləşdirilməsi və innovasiyaların dəstəklənməsində vergilərin stimullaşdırıcı rolunun artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib.

Görüşdə vergi siyasəti, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş son tədbirlər, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və növbəti islahatlarla bağlı planlarla əlaqədar fikir mübadiləsi aparılıb, missiya üzvlərinin sualları cavablandırılıb.

## "AtaBank" ASC-dən mobil danışıq dəqiqələri hədiyyə




"AtaBank"da həyata keçirilən "Pul köçürənə/alana mobil danışıq dəqiqələri hədiyyə" aksiyası davam edir. Aksiyanın şərtlərinə əsasən, "AtaBank"ın filiallarında pul köçürənə və ya alana 1 manatdan 5 manatədək mobil danışıq dəqiqələri hədiyyə olunur.

Hazırda bankımız öz müştərilərinə 6 növ sürətli pul köçürmə sistemi üzrə xidmət göstərir. Bunlar Western Union, Privat Money, Blizko, Monex, Contact və Lider sürətli pul köçürmə sistemləridir.

## Azərbaycanda İngiltərəyə məxsus mənzil-tikinti şirkəti yaradılıb



İngiltərəyə məxsus "KnightsBridge" mənzil tikinti şirkətinin Azərbaycanda "Knights Bridge Ağ Şəhər" adlı korporativi yaradılıb.Bu barədə Vergilər Nazirliyindən məlumat verilib.

Korporativin hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti, ev 153-dür.

Şirkətin nizamnamə kapitalı 100 manat, qanuni təmsilçisi isə Araz Ağayevdir.

# Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

*Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə səmərəli əməkdaşlığının qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində 2011-2015-ci illəri əhatə edən «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişafı Konsepsiyası» mühüm əhəmiyyət kəsb edir. İcra müddəti başa çatmış Konsepsiya çərçivəsində görülmüş işlərlə bağlı Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədovla söhbət etdik.*



**- Elçin müəllim, öncə Konsepsiyanın müəyyənləşdirdiyi başlıca hədəflər barədə: qarşıya hansı vəzifələr qoyulmuşdu?**

- 2010-cu ilin sonunda qəbul edilmiş bu sənəd Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin qarşısında 5 illik yeni mərhələdə vergi ödəyicilərinə xidmət sahəsinin inkişafı, xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, funksional idarəetmənin yeni formalarının tətbiqi kimi vəzifələr qoymuşdu. Əsas hədəflərimiz bunlar idi:

- elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, e-xidmətlərdən istifadənin kütləviləşdirilməsi;
- vergi bəyannamələrinin təkmilləşdirilməsi, tərtibatının sadələşdirilməsi;
- vergilərin vaxtında ödənilməsi, vergi borclarının yaranmaması üçün profilaktik işlərin təşkili;
- vergi ödəyicilərinə xidmətin forma və metodlarının təkmilləşdirilməsi;
- vergi ödəyicilərinə xidmət sahəsində çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s.

**- Elektron xidmətlərin genişləndirilməsi nəinki Vergilər Nazirliyinin, ümumiyyətlə, hökumətin fəaliyyətinin başlıca prioritetlərindəndir. Konsepsiya çərçivəsində bu sahədə hansı nailiyyətlər əldə olunub?**

- Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi bizim üçün həmişə aktualdır. Burada əsas məqsəd perspektivdə vergi ödəyiciləri ilə canlı təmas formalarını məhdudlaşdırmaq və müasir informasiya texnologiyalarından istifadə etməklə vergi orqanları tərəfindən göstərilən xidmətlərin elektron formada tətbiqinin genişləndirilməsinə nail olmaqdır.

Hazırda ölkəmizdə müxtəlif dövlət qurumları tərəfindən 432 elektron xidmət göstərilir. Bu xidmətlərin böyük hissəsi, dəqiq desək, 62-si Vergilər Nazirliyinin payına düşür. İndi Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanıdır. Tətbiq olunan elektron xidmətlər vergi inzibatçılığının, demək olar ki, bütün mərhələlərini əhatə edir.

**- Son illər Azərbaycanda informasiya texnologiyaları xeyli inkişaf edib. Ancaq onu da etiraf etmək lazımdır ki, vətəndaşlar müasir texnologiyalar sahəsində yetərincə təkmil bilik və səriştələrə malik deyillər. Belə bir şəraitdə Vergilər Nazirliyi elektron xidmətlərin tətbiqi nəzərdə tutulan auditoriyanı əhatə edə bilirmi?**

- Tamamilə doğru yanaşmadır. Həqiqətən, heç də bütün vergi ödəyicilərinin informasiya texnologiyalarından istifadə imkanları və bacarıqları eyni deyil. Vergi ödəyicilərinin bir qismi lazımi istifadəçi bacarıqlarına malik deyil, müvafiq bacarıqlara malik digər hissəsinin isə sərəncamında müvafiq texniki vasitələr yoxdur. Əlbəttə, hər iki amil ciddi problemdir və bunların həlli üçün müvafiq tədbirlər görmüşük.

Konsepsiya qüvvəyə minməzdən əvvəl - 2007-ci ildən Vergilər Nazirliyi tərəfindən vergi orqanı olmayan şəhər və rayonlarda müasir avadanlıqlarla və sürətli internet xətti ilə təchiz edilmiş kompyuter terminalları yaradılaraq vergi ödəyicilərinin istifadəsinə verilmişdi. Sonradan bu obyektlər vergi ödəyicilərinə xidmət mərkəzlərinə çevrildi. Burada vergi ödəyiciləri digər xidmətlərlə yanaşı, elektron xidmətlərdən də yararlanmaq imkanı əldə ediblər. Təməli həmin dövrdən qoyulan yanaşma bu gün də vergi ödəyicilərinə xidmət mərkəzlərində davam etdirilir və bu strukturlar elektron xidmətlərin təşviqi sahəsində aparıcı qüvvəyə çevrilib. Son 4 il ərzində - 2012-2015-ci illərdə göstərilmiş elektron xidmətlərin sayı 539 mindən çox olub. Digər tərəfdən, xidmət mərkəzlərinin əməkdaşları tərəfindən vergi ödəyicilərinə elektron xidmətlərdən istifadə ilə bağlı əməli kömək göstərilməklə yanaşı, onların informasiya texnologiyaları üzrə bacarıqlarının yaradılmasına da diqqət yetirilir. Məqsəd budur ki, vergi ödəyicisi növbəti müraciətlər zamanı özünə lazım olan xidmətlərdən müstəqil şəkildə yararlana bilsin.

**- Xidmət mərkəzlərində elektron xidmətlərdən əlavə, daha hansı xidmətlər göstərilir?**

- Hazırda sayı 55-ə çatmış xidmət mərkəzlərinə müraciət edənlər elektron xidmətlərlə yanaşı, şifahi suallarına cavab alır, yazılı müraciətlərini təqdim edir və hazır sənədləri götürə bilirlər. Təkcə 2015-ci il ərzində bu mərkəzlərə 390 minədək vergi ödəyicisi müraciət edib və onlara 580 minədək xidmət göstərilib.

Qeyd edim ki, bu mərkəzlərdə mobil nömrə vasitəsilə identikləşdirilən, asanlığı və rahatlığı ilə fərqlənən, vergi ödəyicisinin məlumatlarının təhlükəsizliyinə xidmət edən «ASAN imza»nın alınmasında da əməli kömək göstərilir. Yaranma tarixindən 2015-ci ilin sonunadək 190.590 «ASAN imza» verilib ki, bunların bir hissəsi mərkəzlər vasitəsilə təmin olunub.

Hazırda müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə bütün xidmət mərkəzləri növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə (sorğu keçirmə) sistemləri ilə təchiz olunub. Hər bir xidmət mərkəzinin girişində elektron növbə terminalı quraşdırılıb ki, bu da vergi ödəyicilərinə xidmətin təhlil üzərində qurulmasına imkan yaradır.

**- Konsepsiyanın hədəfləri arasında bəyanetmə proseslərinin sadələşdirilməsi də var. Bu sahədə hansı nailiyyətlər əldə olunub?**

- Əslində, vergitutma bazasının müəyyən olunmasına xidmət edən bəyanetmə vergi inzibatçılığının ən önəmli həlqələrindən biri kimi qəbul olunur. Təsadüfi deyil ki, Dünya Bankı tərəfindən «Doing Business» icmalında ölkə imicini formalaşdıran əsas amillərdən biri məhz bəyannamələrin təqdim olunmasına sərf edilən müddətdir. Bəyanetmə proseslərinin sadələşdirilməsi iki amili ehtiva edir - bəyannamə formalarının mümkün qədər sadələşdirilməsini və bəyannamələrin təqdim olunma formalarının təkmilləşdirilməsini.

Bəyannamə formalarının təkmilləşdirilməsi bir çox digər amillərlə, o cümlədən vergi nəzarətinin təkmilləşdirilməsi və vergitutma bazasının müəyyən olunması ilə sıx bağlıdır. Ona görə də Vergilər Nazirliyinin aidiyyəti strukturları tərəfindən bu proses üzərində iş davam etdirilir. O ki qaldı bəyanetmə imkanlarına, hazırda vergi ödəyicisi vergi öhdəliklərini 3 yolla - şəxsən təqdim etmək, poçtla təhvil vermək və elektron şəkildə göndərməklə bəyan edə bilir.

Bir qədər də elektron bəyanetmə barədə məlumat vermək istərdim. Bu proses 2007-ci ildən başlayıb və ilkin mərhələdə yalnız Vergilər Nazirliyinin xüsusi Bəyannamə Tərtibatı Proqramı (BTP) vasitəsilə oflayn qaydada həyata keçirilirdi. Sonrakı dövrlərdə sadələşdirilmiş vergi bəyannaməsini onlayn qaydada təqdim etmək imkanı yaradıldı. Bəyanetmə prosesinin inkişafının daha bir təzahürü torpaq vergisinə şamil edilən bəyannamələrin vergi orqanları tərəfindən ilkin tərtibatı və növbəti mərhələdə vergi ödəyicisi tərəfindən təsdiqi mexanizminin işə salınmasıdır.

Daha bir yenilik mobil texnologiyalar sahəsində baş verib. 2015-ci ildən vergi ödəyiciləri Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə zəng edərək, sadələşdirilmiş vergi bəyannaməsini vergi orqanına «ASAN imza» vasitəsilə daha rahat və sadə yolla təqdim edə bilirlər.

**- Konsepsiyada inkişafına ayrıca önəm verilən Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi yeni innovativ mexanizmlərin tətbiqi ilə seçilir...**

- Xatırlatmaq istərdim ki, ayrı-ayrı dövlət orqanlarındakı analoji telefon-məlumat xidmətlərini Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə inteqrasiya etməklə vahid nömrəli telefon-məlumat xidmətinin təşkili Konsepsiyada vergi ödəyicilərinə xidmətin inkişafında strateji hədəf kimi göstərilmişdi. Gərgin zəhmət nəticəsində Universal Çağrı Mərkəzinin yaradılması ilə istəyimizə nail ola bildik. Artıq sahibkarlar və vətəndaşlar vaxt itkisinə yol vermədən 195 nömrəsini yığmaqla biznesin qeydiyyatı, lisenziyalaşdırma, mühasibat uçotu, vergilər, rüsumlar, gömrük rəsmiləşdirilməsi, sosial və digər icbari ödənişlər, əmək qanunvericiliyi, sosial müdafiə, pensiya təminatı və s. barədə bir mənbədən məlumat almaq imkanı əldə ediblər. Bundan başqa, Çağrı Mərkəzində bir sıra yeniliklər tətbiq olunub, vergi ödəyicilərinə göstərilən xidmətin spektri genişləndirilib. Məsələn, vergi ödəyiciləri vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatları müntəzəm əldə etmək istədikdə, ikitərəfli SMS xidmətinə abunə ola bilərlər. Qeyd edim ki, 2014-cü ildə abunəçilərə göndərilən SMS-lərin sayı 12.492 idisə, 2015-ci ildə bu rəqəm 19.730 olub.

Digər vacib məqam ondan ibarətdir ki, Çağrı Mərkəzi tərəfindən buraxılmış zənglər və ya vergi ödəyicisinin sifarişi əsasında əməkdaşlarımız tərəfindən vergi ödəyiciləri ilə əks-əlaqə saxlanılır, yəni heç bir müraciət cavabsız qalmır. 2014-cü ildə buraxılmış zənglər üzrə əks-əlaqənin sayı 4709, sifariş üzrə 412 olub. 2015-ci ildə isə bu göstəricilər, müvafiq olaraq, 5356 və 594 olub.

**- Bu gün vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı məlumatlandırma, maarifləndirmə və təbliğat işlərinin aparılması məsələsi xeyli aktuallaşıb. Bu işlər daha hansı forma və vasitələrlə aparılır?**

